# ÖZÜ ŞEİR OLAN ŞAİR

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubu bu gün yazıçı və şairlərin sevinc yeri olan bir məkandır.**

M. Gəncəvinin, X.b. Natavanın ədəbi runu XX əsrdə N.Nəfibəyli, M.Dilbazi, M.Gülgün tərəfindən yaradıcılıq pikinə qaldırıldı. XXI əsrdə belə qadın yazarlarımız çoxaldı. Onların içərisində ədəbiyyat tariximizdə qalanlar, əlbəttə, XX əsrə nisbətən çoxluq təşkil edəcək. Bu dəfə qadın yazarlardan biri - Adilə Nəzər haqqında söhbət açmaq istəyirəm.

Şərur rayonunun Şəhriyar kəndində çoxuşaqlı ailədə uşaqlıq həyatını yaşayan Adilə müəllimə sonrakı həyatında - orta məktəbdə, ali məktəbdə, magistraturada, dissertanturada uğurlara yiyələnib. Yəqin ki, oxucu düşünəcək, bunlar üst-üstə 25 ilə yaxın bir ömür yoludur. Yaradıcılığına orta məktəb illərindən başlayan Adilə xanım "Həsrəti öldürürəm", "Sabahım, sənmisən gələn", "Yuxuma yağış yağır", "Sevgi qum saatıdır", "Xəbərin oldumu" adlı beş şeirlər və dissertasiya işinə praktik iş olaraq "Fəlsəfə terminlərinin izahlı lüğəti" kitablarının müəllifidir. "Sevgi qum saatıdır" kitabını 2014-cü ildə ilk dəfə nəşriyyatda oxucu əlində gördüm. Aldım. Adətim üzrə əvvəl kitabın zövq ilə hazırlanmasına diqqət yetirib, arxasındakı "Tanrım" şeirini oxudum.

**Tanrım!**
**Qul olsam da varlıyam səndən,**
**Baxma ki, dilimdə minbir ahım var.**
**Sənin mənim kimi günahkar bəndən,**
**Mənim sənin kimi bir Allahım var.**

Şeir məni ovsunladı. Oxucu dostum mənə kömək etdi. Kitabı əldə edəndən sonra bütün yaradıcılığı ilə maraqlandım. Bu gün şair haqqında demək olar ki, xeyli məlumatım var. Şairi öyrəndikcə duydum ki, bu insan təpədən dırnağadək şeirdir.

**Buludа bel bağlama, göz yaşın olan yerdə,**
**Gözün qələm gəzməsin, yaddaşın olan yerdə.**
**Ürəyinə yüklə sən həyat adlı hər yükü,**
**Kimsədən ağıl umma, öz başın olan yerdə.**

Bir də duydum ki, əldə olan 5 şeirlər kitabının hamısındakı şeirləri mündəricatda ayrı-ayrı mövzulara - yəni, bölmələrə ayırmır. Bəli, ana övladlarının birini o birindən qabağa keçirmədiyi, əzizləmədiyi kimi şair də eləcə sıra ilə düzür və onlara gedin uğur qazanın, yaşayın deyir. Bu o deməkdir ki, siz mənsiniz, mən də sizəm. Mən sizi yaşamaq üçün İlahidən pay aldım, siz də məni yaşadın.

**Günah mənəm, günahkar sən,**
**Səni mənə sevdirən - sən.**
**Bircə acı kəlmən ilə**
**Yaşayarkən öldürən - sən.**

Bəli, bu şeir şairi əlbəttə yaşadacaq. Oxucu hisslərinə umduğu sevinci yetirməyə qadir olacaq.

Adilə Nəzərin şeirlərində önəmli yerlərdən biri də özünü təbiətə çevdirməsidir. O duyur ki, dünyanın ən mahir rəssamı elə təbiətin özüdür.



Mən özümcə hər vaxt bu duyğudayam ki, ən yaxşı sözün də, ifadənin də sahibi elə təbiətdir. Əgər təbiətin yaratdığı o gözəlliklər olmasa, söz, İlahidən bizə "görün, götürün payı göndərilərmi". Əlbəttə, təbiətin rəssamı bizə pay göndərəndi.

**Yağış yuyur küskünlüyümü...**
**Dönürəm selə-suya,**
**yağışa qarışıram,**
**özümlə barışıram...**
**Tutub bu yağışın ucundan,**
**çıxıram eşqin zirvəsinə.**
**Yarpaqlar tək oynayıram**
**bu yağışın nəğməsinə.**

Qəlbi dolu şair söz axtarmır, ya da mövzu onu dindirəndə sözə yalvarmır.

Bir də onu diqqətinizə çatdırım ki, Adilə xanımın beş şeir kitabında min iki yüzə yaxın şeirləri toplanıb. Yaşının bu söz demək çağında böyük müvəffəqiyyətdir. Böyük istedad sahibinin gələcəkdə daha çox uğurlar qazanacağına şübhəm yoxdur.

"Səbr elə", "Sən və mən", "Yazıq sevgim", "Səni görmək istəyirəm", "Sevgim ağlayır" şeirlərində ilham ocağı ilə səmimi dərdləşir, özünü özünə təqdim edib, özündən cavab alır.

**Asta-asta vur ürəyim,**
**hara tələsirsən belə?**
**səbr elə.**
**İlmə-ilmə soyma məni,**
**yarı yolda qoyma məni.**
**Taleyimə nə yazıbsa Yaradan,**
**gəlib döyəcək qapısın bəxtimin.**
**Bilirəm ki, bitməyəcək**
**gündüzümdə həzin meh,**
**gecəmdə də fırtınam.**

Ümumiyyətlə, bütün yazılarında şair bu mənim üslubumdu, bu mənim yolumdu deyir. Sanki, kiməsə oxşamaqdan qorxur. Bu fikri həm sərbəst vəznli, həm də heca vəznli şeirləri haqqında demək yerinə düşər. Şeirlərində elə bil öz-özünə pıçıldayır. Bax bu mənəm, bax, indi Adiləyəm. Əslində o, həm də oxucudur. Öz duyğuları ilə bərabər oxucunun da duyğularını yazır.

**...Bir şeir istəyirəm,**
**içimdə boğulan hıçqırığımdan**
**quşlar da köç etsin yuvalarından.**
**Yuvalar boş qalmış könül evim kimi**
**asılsın ağac budaqlarından...**

Şair sevgi mövzusunda da fərqli düşünür, sevginin dili var deyir, sevgi dili ilə küsür, barışır. Küskün hisləri məhəbbəti azad buraxmır, əksinə, onu məcbur edir ki, hünərin var ürəyimdən qop, amma qana çevrilmə. O da təbəssüm göndərib barışır. Bu mövzularda şair nə klassizmi, nə də müasir şairləri təqlid etmir.

Şairin şeirlərində nisgil müəyyən qədər yer tutur, bu nisgillərin ən böyüyü ata-ana itkisidir. Bu itkilər də döyəcləyir şair qəlbini, onda Adilə xanım yenidən qayıdır Şəhriyar kəndinə. Bütün kəndi gəzir, uşaqlıq illərini, ata sığalını, ana çağırışını axtarır. Şair yuxularına onların həsrəti qarışır.

**Yadımdan çıxmayır ayrılıq anı,**
**Qəlbimi ümidsiz baxışın sıxır.**
**Son dəfə görüşüb gedəndən, ata,**
**Hələ də əllərim ayrılıq qoxur.**

Yaradıcılığını oxuduqca inandım ki. Adilə xanımdakı istedad onu hər gün yazmağa məcbur edir. Həm də duydum ki, o, kitabdan-kitaba, mövzudan-mövzuya, şeirdən-şeirə püxtələşir, yeni poetik ifadələr tapır. Şair səmimi duyğuların qaynar ifadəsində yeniləşir, müasir ədəbiyyatda yeni söz demək axtarışlarına can atır.

**Sevgisiz qalan kimi düşdüm ruhdan, əməldən,**
**Sevgim çox olanda da ağlayıb sızladım mən.**
**Nədir bu sirr, Xudaya, yanmaq istəyim nədən?**
**Azalan kimi odum, atəş arzuladım mən.**

Adilə Nəzərin heca vəznində yazdığı şeirlərdə bölgülər, qafiyələr, rədiflər vəznin tələblərini ödəyir. Şair çətin söz seçimi yolu ilə getsə də, vəznin tələblərinə məsuliyyətlə yanaşır. Sərbəst vəzndəki şeirlərində getdikcə oxucu tələbini ödəyən yeni məzmun axtarır. O, sərbəst vəzndə də qafiyə yolunu təkmilləşdirməyə həvəslidir və bunu bacarır.

Adilə Nəzər "Fəlsəfə terminlərinin izahlı lüğəti" kitabında 2000-də artıq fəlsəfə termininin izahını açmışdır. Bəlkə də şeirlərindəki yeni, poetik, fəlsəfi ifadələr bu bacarığından irəli gəlir.

Əlbəttə, 6 kitab haqqında söz demək bir yazıya sığmır, gələn yazımda şairin yaradıcılığında nəzəri məsələlərə daha çox diqqət yetirmək fikrindəyəm.

Bir də arzu edərdim ki, şair qələmini uşaq ədəbiyyatında da sınasın. Klassik ədəbiyyata da həvəslə baxsın və yaradıcılığının şaxələrini genişləndirsin. Axı, şair Adilə Nəzər böyük istedad sahibidir, əminəm ki, hər sahədə yaxşı nəticələr əldə edəcəkdir.

Uğurlar, uğurlar!

**ƏVƏZ SÜLEYMAN**
**AYB-nin üzvü, prezident mükafatçısı**